*“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 23 avqust 2014-cü il | № 65 (1882) | Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Nəqliyyat Komandanlığının yeni komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də ABŞ Nəqliyyat Komandanlığının yeni təyin olunmuş komandanı Pol Jozef Selvanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat infrastrukturu sahəsində uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycanda nəqliyyat infrastrukturu, yerüstü daşımalar və yük daşımaları üçün əlverişli xidmət vasitələrinin yaradıldığı bildirildi, bu istiqamətdə böyük layihələrin həyata keçirilməsinin önəmi qeyd olundu.

Görüşdə, həmçinin Azərbaycanın əlverişli coğrafi mövqeyi və əldə etdiyi iqtisadi uğurlar nəticəsində ölkəmizin beynəlxalq nəqliyyat daşımaları sahəsində mühüm məkanlardan birinə çevrildiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada iştirakı, nəqliyyat təminatı sahəsinə verdiyi töhfə yüksək qiymətləndirildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AzərTAc**

## Azərbaycanın NATO-nun Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin əməliyyatına töhfələri yüksək qiymətləndirilib

***Avqustun 21-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ABŞ-ın Nəqliyyat Komandanlığının rəhbəri general Paul Selvanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildirilib ki, görüşdə Azərbaycanın NATO-nun Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin əməliyyatına töhfələri yüksək qiymətləndirilib.

Azərbaycanın Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri üçün əsas, etibarlı və təhlükəsiz tranzit marşrutlarından biri kimi ikitərəfli və çoxtərəfli əsasda nəqliyyat və yükdaşımaları sahəsində NATO-nun üzv və tərəfdaş ölkələrinə, o cümlədən ABŞ-a göstərdiyi dəstəkdən məmnunluq ifadə olunub.

Elmar Məmmədyarov tərəfdaş dövlət olaraq Azərbaycanın Əfqanıstan əməliyyatı ilə əlaqədar bundan sonra da lazımi tranzit dəstəyi göstərəcəyini qeyd edib. Nazir tikintisi başa çatmaqda olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin və Ələt qəsəbəsi ərazisindəki Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ölkəmizin tranzit və nəqliyyat imkanlarını daha da artıracağını bildirib.

General Paul Selva əməkdaşlığa və dəstəyə görə Azərbaycana təşəkkürünü bildirərək, ölkəmizin əlverişli coğrafi mövqeyinin, inkişaf edən nəqliyyat infrastrukturunun yüksək təəssüratlar doğurduğunu, xüsusilə kommersiya və ticarət baxımından böyük imkanlara malik olduğunu deyib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Türkiyə mətbuatı Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin Naxçıvan görüşü haqqında yazır

***Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin Naxçıvanda keçirilmiş üçtərəfli görüşü Türkiyə mətbuatında geniş işıqlandırılıb.***

Nazirlərin müzakirə etdikləri məsələlər barədə məlumat verən yerli mətbuat yazır ki, bu görüş Azərbaycan, Türkiyə və Gürcüstan arasında strateji müttəfiqliyin yaratdığı münasibətlərin göstəricisidir. Qeyd olunur ki, Azərbaycan, Türkiyə və Gürcüstanın üçtərəfli birgə əməkdaşlığı Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi nəhəng qlobal layihələrin reallığa çevrilməsinin əsasıdır. Bu və digər beynəlxalq iqtisadi layihələrin təhlükəsizliyinin təmin olunması hər üç ölkənin milli maraqlarına aid məsələdir.

## Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsi BMT TŞ-nin iclasında qaldırılıb

***Avqustun 21-də Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev BMT Təhlükəsizlik Şurasının "Münaqişələrin qarşısının alınması" mövzusunda açıq iclasında çıxış edib.***

Münaqişələrin qarşısının alınması konsepsiyası ilə beynəlxalq mübahisələrin dinc yolla tənzimlənməsi prinsipi arasında sıx qarşılıqlı əlaqə olduğunu vurğulayan Azərbaycan səfiri qeyd edib ki, BMT Nizamnaməsinin 51-ci maddəsinə görə, hər hansı dövlət beynəlxalq öhdəliklərini yerinə yetirmədiyi və başqa dövlətin ərazisini işğal etmək üçün hərbi qüvvədən istifadə etdiyi hallarda, təcavüz qurbanına özünü fərdi və ya kollektiv şəkildə müdafiə etmək hüququ verilir.

Azərbaycanın daimi nümayəndəsi onu da xatırladıb ki, beynəlxalq hüquq nəinki münaqişənin qarşısının alınması və ya tənzimlənməsi üçün müəyyən nəticəyə nail olmağı, həm də və ilk növbədə, son nəticəyə nail olmazdan əvvəl konkret normalarla tam uzlaşan proses getməsini tələb edir. Bu baxımdan vurğulanıb ki, münaqişələrin nizamlanması üzrə müvafiq mexanizmlərdən hüquqa açıq-aydın zidd olan və baş vermiş fakta əsaslanan qərarların təsbit olunması vasitəsi kimi istifadə edilə bilməz. Bu cür qərarları zorla qəbul etdirmək və ya təşviq etmək cəhdləri isə uğursuzluğa məhkumdur və bu cəhdlər möhkəm sülh, uzunmüddətli sabitlik üçün zəruri əsas yaratmağa əsla kömək etməyəcək.

Y. Əliyev təcavüzkar separatizm probleminə hərtərəfli beynəlxalq yanaşmanın zəruriliyini də qeyd edib. Təhlükəsizlik Şurasının diqqəti onun qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini, münaqişələrin gedişində törədilmiş cinayətlərə görə məsuliyyət və cəzasızlığa qarşı mübarizə kimi mühüm məsələlərə baxılarkən prinsipial mövqe tutmağın vacibliyinə yönəldilib.

Bundan sonra Ermənistanın daimi nümayəndəsi Zöhrab Mnatsakanyan çıxış edərək Azərbaycan tərəfinin arqumentlərinə qarşı heç bir dəlil ilə təsdiqlənməyən standart ittihamlar irəli sürməyə cəhd göstərib. Ermənistan səfirinin çıxışı zamanı Təhlükəsizlik Şurasının üzvlərinin və iclasın digər iştirakçılarının heyrətləndiklərini görmək çətin deyildi.

Yaşar Əliyev cavab bəyanatı ilə çıxış edərək Ermənistan səfirinin beynəlxalq birliyi çaşdırmaq və öz dövlətinin ilhaqçı siyasətindən, Azərbaycan ərazisinin xeyli hissəsinin Ermənistan tərəfindən işğal edilməsi və etnik təmizləməyə məruz qalması faktından yayındırmaq üçün daha bir uğursuz cəhd göstərməsinə diqqəti cəlb edib.

Yaşar Əliyev çıxışının sonunda deyib: "Danışıqların gedişində Ermənistanın mövqeyinin qeyri-konstruktivliyi, onun mövcud status-kvo vəziyyətini saxlamaqda maraqlı olması, Madrid sülh planına riayət etməkdən boyun qaçırması, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməkdən imtina etməsi, sərt etnik təmizləmə siyasəti, habelə bu yaxınlarda törətdiyi, sülh prosesinin pozulmasına yönəlmiş təhrikçi hərəkətləri - bütün bunlar beynəlxalq birlik tərəfindən Ermənistan barəsində ciddi sanksiyalar tətbiq edilməsi üçün ən mühüm əsasdır. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində qalmaqda davam etməsi sülh prosesi üçün yenə də çox ciddi təhlükədir. Bununla əlaqədar, ilk növbədə Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır. Ermənistan bunu nə qədər tez etsə, regionda sülhü, sabitliyi və vəziyyətin proqnozlaşdırılan olmasını bir o qədər tez bərpa etmək mümkün olacaqdır".

**AzərTAc**

## Öz gözündə tiri görmür...

***Rusiyanın "Tribuna" qəzetinin 20 avqust nömrəsində Alesya Dovlatovanın "Təhlükəli dezinformasiya. Rusiyanın yaxın müttəfiqləri onu hansı oyunlara çəkməyə cəhd edirlər?" sərlövhəli məqaləsi dərc olunub.***

Material Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin bu ayın əvvəlində Soçidə keçirilən görüşünə həsr olunub. Müəllif Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Rusiyanın vasitəçilik rolundan bəhs edir. Ölkəsinin Ermənistanla və Azərbaycanla münasibətlərini xarakterizə edən A.Dovlatova yazır: "Ermənistan Rusiyanın tarixi müttəfiqi hesab edilir, bu ölkə Avrasiya İttifaqına daxil olmağa hazırlaşır. Eyni zamanda, ölkəmizin Azərbaycanla da yaxşı münasibətləri var. Bu ölkədə rus məktəblərini və qəzetləri bağlamırlar, "sovet işğalı muzeyi" yaratmırlar, ümumiyyətlə, Rusiya əleyhinə təbliğatla məşğul olmurlar. Əvəzində siyasi islahatları uğurla həyata keçirirlər, on il ərzində iqtisadiyyatda böyük uğurlar əldə ediblər”.

Soçi görüşünün bəzi təfərrüatlarından söz açan müəllif yazır ki, görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyev BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasını tələb edən dörd qətnaməsini xatırladıb və təəssüfləndiyini bildirib ki, iyirmi ildən çox keçməsinə baxmayaraq, bu qətnamələr hələ də kağız üzərində qalıb. Buna cavab olaraq Serj Sarkisyan bildirib ki, qətnamənin bəndini yerinə yetirən, hərbi əməliyyatları dayandırmaq üçün öz nüfuzundan istifadə edən təkcə Ermənistan olub".

Jurnalist daha sonra yazır: "Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası əhəmiyyətsiz məsələlərə görə toplaşmır. O, həqiqətən, dörd dəfə toplaşıb və dörd qətnamə qəbul edib. Bütün qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi, işğal olunmuş rayonlardan qoşunların çıxarılması ifadə olunub. Amma bütün bu müddətdə regionda hərbi əməliyyatlar davam edir. Nəzərə almaq lazımdır ki, barışıqdan hər dəfə məhz Ermənistan imtina edir".

Məqalədə deyilir ki, Azərbaycanda daxili siyasi qeyri-sabitlik dövrü Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başa çatdı. "O, digər işlər sırasında, tələm-tələsik təşkil edilmiş ərazi özünümüdafiə qruplaşmalarını əsl orduya - nizam-intizamlı, vahid rəhbərliyi, sərt komanda vertikalı olan orduya çevirməyə başladı". "...Cəbhə xəttində artıq Azərbaycan hücuma keçir, - deyə müəllif davam edir, - Horadiz və daha bir neçə kənd və qəsəbə azad edilir. Yerevanda deyəsən dərk edirlər ki, müharibə daha birtərəfli olmayacaq. Bundan sonra Azərbaycanın müdafiə xəttinin ön hissələrinin döyüş qabiliyyətini ehtiyatla yoxlamağa cəhd etsələr də, irimiqyaslı hərbi əməliyyatlara keçmədilər. Lakin BMT Təhlükəsizlik Şurasının qoşunları Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmasını tələb edən, hazırda bir sıra digər sənədlərin də əlavə olunduğu qətnamələrə Ermənistan indiyədək əməl etməyib. Soçi danışıqlarında Azərbaycan Prezidenti məhz bunu xatırladırdı".

Məqalədə vurğulanır ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri konkret beynəlxalq sənədlərdir ki, konkret hadisə ilə əlaqədar qəbul edilib və konkret tələb irəli sürür - xarici qoşunlar Azərbaycanın ərazisindən çıxarılsın. Bu tələb artıq iyirmi ildir ki, yerinə yetirilməmiş qalır.

Jurnalist sual edir: "Lakin Ermənistan prezidentinin səsləndirdiyi versiyaya görə, BMT Təhlükəsizlik Şurasının qətnamələrini məhz Azərbaycan yerinə yetirmir. Lakin Azərbaycan bu qətnamələri dinc yolla necə yerinə yetirməli idi? Qanuni ərazilərindən tamamilə imtina etsin? Torpaqlarının iyirmi faizini qonşusuna bağışlasın?".

Müəllif məqalənin sonunda qeyd edir: "Serj Sarkisyanın bu cür bəyanatlarına el arasında "öz gözündə tiri görməyib özgə gözündə tük axtarmaq" deyirlər. "Böyük siyasətdə" isə bunun adı təxribatdır".

**AzərTAc-ın materialları əsasında**

## Belarus və Ukraynadan olan Azərbaycan Milli Qəhrəmanlarının ailələrinə "Qızıl Ulduz" medalı təqdim olunub

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təşəbbüsü ilə nazirliyin zabiti polkovnik Abdulla Qurbani Belarus və Ukraynaya ezam olunub.***

Avqustun 21-də polkovnik A.Qurbani Belarus Respublikasının Slutsk şəhərində olub, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və rəşadətə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş mayor Anatoli Nikolayeviç Davidoviçin ailəsinə baş çəkib.

Milli Qəhrəmanın ailəsinə Azərbaycan Respublikasının Müdafiə nazirinin salamlarını və hədiyyəsini təqdim etdikdən sonra ölkəmizin Belarusdakı səfirliyi, Belarusdakı Azərbaycan İcmaları Konqresi, Slutsk şəhəri icra komitəsinin nümayəndələrinin iştirakı ilə şəhidin məzarı önündə anma mərasimi keçirilib.

Mərasimdə Milli Qəhrəmanın məzarı önünə Azərbaycan Respublikasının Müdafiə naziri adından əklil qoyulub və ölümündən sonra qəhrəmanın təltif edildiyi "Qızıl Ulduz" medalı şəhidin anasına təqdim olunub. Məzarüstü abidəyə "Azərbaycanın Milli Qəhrəmanı" sözləri yazılmış və səkkizguşəli ulduz həkk olunmuş mərmər xatirə lövhəsi vurulub.

Milli Qəhrəmanın anası Klavdiya Andreyevna, Slutsk şəhəri icra komitəsinin nümayəndəsi Larisa Georgiyevna və digər çıxış edənlər bu xeyirxah və vətənpərvər təşəbbüsə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

Tədbir Belarusun kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır.

Avqustun 23-də isə polkovnik A.Qurbani Ukraynanın Xarkov vilayətinin Zimiyov şəhərində dünyaya gəlmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində şəhid olmuş cəsur təyyarəçi Ruslan Aleksandroviç Polovinkanın məzarını ziyarət edərək Müdafiə Nazirliyi adından əklil qoyacaq və ölümündən sonra təltif edildiyi "Qızıl Ulduz" medalını 22 ildən sonra Azərbaycanın Milli Qəhrəmanının ailəsinə təqdim edəcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri ABŞ Müdafiə Nazirliyinin Nəqliyyat komandanını qəbul edib

***Avqustun 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ABŞ Müdafiə Nazirliyinin Nəqliyyat komandanı general Paul Cozef Selvanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***



Müdafiə naziri qonaqları salamlayaraq bölgədəki vəziyyət, Ermənistanın işğalçılıq siyasətinin davam etməsi, son zamanlar cəbhə bölgəsində baş verən atəşkəs rejiminin pozulması hallarının, düşmənin kəşfiyyat-təxribat basqınlarının sayının artması və bu təxribatların erməni silahlı bölmələri tərəfindən törədilməsi barədə onlara ətraflı məlumat verib.

Müdafiə naziri ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətləri üzrə əldə edilmiş müsbət nəticələrindən və qarşılıqlı əlaqələrin genişlənməsindən məmnun olduğunu qeyd edib.

Qonaq Silahlı Qüvvələrimizin Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə verdiyi töhfəyə görə minnətdarlığını bildirib və tərəflər arasında davam edən səmərəli hərbi əməkdaşlığı təqdirəlayiq nümunə kimi diqqətə çatdırıb.

Sonra ikitərəfli əməkdaşlığa dair digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Vətən sizə əmanət

***Müdafiə Nazirliyinin təşkilatçılığı ilə ictimaiyyət və media nümayəndələrinin cəbhə bölgələrinə səfəri çərçivəsində hər kəsdə vahid fikir formalaşdı: xalq öz ordusuna güvənir, deməli, ordun varsa, yurdun da var. Ordumuz güclü və yenilməzdir, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının müharibə əmri olarsa, torpaqlarımızı erməni işğalçılarından azad etmək qüdrətindədir. Qeyd etməliyəm ki, bu səfərdə KİV nümayəndələrinin fəallığı xüsusilə seçilirdi. Belə ki, fəal, operativ jurnalistlər - Məhərrəm İbrahimov (AzərTAc), İlkin Bağırov (Trend), Elşad Eyvazlı (Modern.az), Kənan Quluzadə (Bakupost), Fərdin İsazadə (İnterFax), Elməddin Muradlı ("Uç nöqtə"), Fərid Hacıyev (Gün.az), Ramil Məmmədli (Aznews) və başqaları ön xətdə zabit, gizir, əsgərlərlə, cəbhəyanı ərazilərdə əhaliylə söhbətlərini, mövcud olan reallıqları dolğun, dürüst şəkildə təmsilçisi olduqları saytlara ötürürdülər.***

***Jurnalistlərin öz aralarında apardıqları diskussiyalardan aydın olurdu ki, KİV nümayəndələrindən ibarət qrupun cəbhə bölgələrinə göndərilməsi zəruridir. Bununla yalan məlumatlar verən mənbələr susdurular, həqiqətlər önə çıxar, hərbi sirlərin yayılmasının qarşısı alınar.***





Saat 8:00-dir. Səhər Füzuli bölgəsində yerləşən "N" hərbi hissəsinin əsgər yeməkxanasında şəxsi heyətlə birlikdə nahar etdikdən sonra Agdama yola düşürük. Və yolüstü yaxınlıqdakı hərbi hospitala da baş çəkməyi qərara alırıq. Qonaqları hospitalda məsul zabit Valeh Rəcəbov qarşılayır.

Hərbi hospitalda tibb personalı və tibb xidmətinin yüksək səviyyədə qurulduğunun şahidi olduq. Hospitalın rəisi həkim-cərrah Şücaət Əliyev söhbətimizdə qeyd edir ki, bu gün Ağdam cəbhənin ən qaynar nöqtəsidir, illərdir ki, yüksək ixtisaslı və təcrübəli tibb heyətinin sayəsində xəstə və yaralıların təcili təxliyyəsini təşkil edirik. Bununla yanaşı ön xətdəki tabor və bölüklərdə nümunəvi tibb xidmətinin həyata keçirilməsində də köməyimizi əsirgəmirik.

**Haşiyə:** Hərbi hospitalın qəhrəmanlıq tarixi var. 1992-1994-cü illər Qarabağ müharibəsində bu hospital şərəfli tarixini yaşadı. Bilirik ki, İkinci dünya müharibəsindən sonra ağır döyüşlər və əhəmiyyətli əməliyyatlar zamanı fəaliyyət göstərən hərbi hospitallar bu gün muzeyə, tarixi yerlərə çevrilib. Ordumuzun tarixini özündə yaşadıb əks etdirən hospitalın hazırda yerləşdiyi binasının da gələcəkdə bir hərbi tibb muzeyinə çevrilməsini istərdik.

Avtobus "N" hərbi hissəsinə daxil olanda artıq media və ictimaiyyət nümayəndələrini ön posta aparacaq hərbi maşınlar hazır vəziyyətdə dayanmışdı. Hərbi hissənin cavabdeh zabitlərinin müşayiətilə cəbhə xəttinə yola düşürük. Burada bizi Vətən keşikçiləri, yurdumuzun müdafiəçiləri qarşılayır. Onların hər biri Mübariz, igid, cəngavərdir.

Qürurlanırıq, Vətən oğullarının qorxmazlığına, düşmənlə mərd-mərdanə üzbəüz dayanmaqlarına, düşməni susdurmağa hazır olduqlarına ...

Burada ölməz şair Məmməd Arazın vətənpərvər misraları yada düşür:

***Vətən mənə oğul desə,
nə dərdim,
Mamır olub qayasında
bitərdim.***

Jurnalistlərin suallarını tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini baş leytenant Tural Qocayev cavablandırır: "Ermənilər son vaxtlar cəbhənin bu istiqamətində çox fəallaşıblar. Axşam düşən kimi mövqelərimizə atəş açırlar. Dünən axşam da iriçaplı avtomatlardan atırdılar. Bizim tərəfdən atəş nöqtələri məhv edilməyə başlayanda düşmən yalvarmağa başladı. Ermənilər yalvarırdılar ki, biz müharibə istəmirik, bizi müharibəyə məcbur cəlb ediblər Atəşi dayandırın. Mən sevinirdim ki, Azərbaycan əsgəri erməni əsgərlərinin necə yalvardığını eşidir".

Sonra döyüş növbəsindən qayıdan əsgərlərlə söhbətimizi davam etdiririk. Onlar yuxusuz, yorğun olsalar da, görkəmcə məğrur, möhkəm görünürdülər. Əvvəlcə əsgər Əlövsət Allahverdiyev danışmağa başlayır: "Tovuz rayonundan hərbi xidmətə çağırılmışam. Bizim rayon sərhəd bölgəsidir, vaxtilə müharibə görüb. Düşmənin bir atəşinə on qat cavab verməyi bacarırıq. Erməniləri torpaqlarımızdan qovmağa, gözümün önündə şəhid olan döyüşçü yoldaşlarımın qisasını almağa hazıram".

Əsgər Famil Cabbarlı isə Biləsuvar rayonundandır. O, ürək sözlərini belə ifadə etdi:

"Üç rəngli Azərbaycan bayrağının qarşısında diz çöküb hərbi and içmişəm. Vətənimin, torpağımın keşiyində ayıq-sayıq dayanmağa söz vermişəm. Bizi bu səngər birləşdirir. Düşmən tərəfindən açılan atəş səslərinin birdəfəlik susdurulmasına lap az qalıb".

Əsgər Xəyal Huseynov Şəmkir rayonundan hərbi xidmətə gəlib.O fəxr edir ki, Ülvin, Elməddin, Nurlan, Səbuhi, Kənan, Fərid, Toğrul, Surxay kimi igid əsgər yoldaşları ilə çiyin-çiyinə xidmət edir. Düşməni dostlarıyla birlikdə məhv etməyə həmişə hazır olduğunu deyir.

Maşınlara, - deyərək bizi müşayiət edən zabitin səsini eşidirik.

- Allah amanında, Vətən sizə əmanət, - deyib onlarla sağollaşıb ön xətti tərk edirik.

**Lalə HÜSEYNOVA
"Azərbaycan Ordusu"**



***Ermənistanın hərbi birləşmələri tərəfindən iyul ayının son günləri və avqust ayının əvvəllərində törədilmiş kəşfiyyat-təxribat cəhdləri Azərbaycanın müxtəlif bölgələrində yaşayan, həmçinin bir sıra xarici ölkələrdə məskunlaşan soydaşlarımızın dərin narahatlığına səbəb olub. Bu məqsədlə Müdafiə Nazirliyinə gələn məktub və elektron müraciətlərin sayı artmaqdadır. Hərbi qulluqçularımızın hünər və rəşadətindən ruhlanan vətəndaşlar daim ordumuzun yanında olmaq istəklərini ifadə edirlər.***



*Məktub və müraciətlərin xülasəsi*

# Müdafiə Nazirliyinin ünvanına müraciətlər daxil olmaqdadır

Bu müraciətlərdə insanlar dövlətimizin ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğıdan, həmçinin son vaxtlar Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərdən söhbət açırlar. Onlar bildirirlər ki, ordumuzun hərbi qüdrətinin güclənməsi istiqamətində atılan hər addım cəmiyyətdə böyük ruh yüksəkliyi və qələbəmizə inam hissi doğurur.

Ağdaş rayonunda məskunlaşmış Kəlbəcər rayon sakini **Azər Yadigar oğlu Həsənov**un müraciətində deyilir ki, düşmənlə təmas xəttində baş vermiş hadisələr zamanı əsgər və zabitlərimizin fədakarlığı onu və ailə üzvlərini ruhlandırıb. O, qeyd edir ki, müharibə veteranı olan atası ilə birgə istənilən an döyüşlərə yollanmağa hazırdır.

Başqa bir müraciət isə hazırda Bakıda yaşayan ehtiyatda olan hərbi qulluqçu **Zeynalov İlkin Raqif oğlu** tərəfindən göndərilib. Cəbhə bölgəsində hərbi xidmətdə olduğunu və yetərli döyüş vərdişlərinə yiyələndiyini bildirən müəllif yenə də ordu sıralarına qoşulmaq istəyini bildirir.

Sumqayıt şəhər sakini **Mayılov İsaq Əlifağa oğlu**nun müraciətindən qeydləri təqdim edirik: "Cənab nazir, yazıb bildirmək istəyirəm ki, Vətən uğrunda döyüşməyə həmişə hazıram. 30 yaşım var, ali təhsilliyəm, əsgərlikdə tankçı olmuşam və döyüş silahlarından mükəmməl istifadə etməyi bacarıram. Bütün qeyd etdiklərimi nəzərə almağınızı və məni də döyüşlərə səfərbər etməyinizi xahiş edirəm. İnşallah, tezliklə torpaqlarımızı işğaldan azad edəcəyik".

Hazırda Rusiyada yaşayan soydaşımız **Ruslan Sərhəd oğlu İsmayılov**un da müraciəti Müdafiə naziri general-polkovnik Zakir Həsənova ünvanlanıb. "Cənab nazir, biz Rusiya Federasiyasında yaşayan azərbaycanlılar da ordumuzun cəbhə xəttindəki son uğurlarından qürur hissi yaşayırıq və bildiririk ki, biz də Vətənimizi işğaldan azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyirik".

Azərbaycan Gənclərinin VII Ümumrespublika Forumunda çıxış etmiş **Sevinc Şabanova**nın da müraciəti sonsuz vətənpərvərlik hissləri üzərində qurulub. Sevinc yazır ki, himnimizi eşidəndə, bayrağımızı görəndə qürurlanır. "Vətənimi, xalqımı, himnimi, bayrağımı canımdan da çox sevirəm. Bilirəm ki, biz güclüyük, çünki güclü Ali Baş Komandanımız və qüdrətli ordumuz var!.."

Qəbələ rayonundan müraciət edən **Mürsəlov Mübariz Şəmsəddin oğlu** bildirir ki, bu ölkənin bir vətəndaşı olaraq torpaqlarımızı düşmənin işğalından azad etməyə hazırdır.

"Cənab nazir, yazıb müraciətimlə Sizə bildirmək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə mən də ön sıralarda olmaq istərdim",- Sumqayıt şəhərindən **Bağırov İbad Şahbaz oğlu** bildirir.

Gəncə şəhəri, Gülüstan qəsəbəsinin sakini, Təcili tibbi yardım stansiyasının həkimi **Mehman Hüseynov** isə müraciətində bildirir ki, Qarabağ döyüşlərində iştirak edib, müharibə veteranıdır. Yenə də əsgərlərimizlə çiyin-çiyinə torpaqlarımızın işğalçılardan təmizlənməsi uğrunda hərbi əməliyyatlarda iştirak etmək arzusundadır.

Bakı şəhərinin Qaradağ rayonundan ünvanlanmış müraciətin müəllifi **Kərimli Əlirza Əlican oğlu** yazır: "Salam, cənab nazir. Son zamanlar ön cəbhədə baş vermiş hadisələrlə bağlı olaraq Sizə müraciət etməyi qərara aldım. Bildirirəm ki, mən ehtiyatda olan kiçik artilleriya mütəxəssisi olaraq düşmənə qarşı hər zaman döyüşməyə hazıram. Ehtiyatda olan manqa komandiri kiçik çavuş Ə. Kərimli".

Yevlax şəhərindən göndərilən müraciətlərdən birinin müəllifi isə Qarabağ müharibəsində döyüş yolu keçmiş bir soydaşımızın övladı, 17 yaşlı **Ziyadov Elgiz Rauf oğlu**dur. Bu gəncin Müdafiə Nazirliyinə müraciəti əslində müasir Azərbaycan gəncliyinin yüksək vətənpərvərlik duyğularından xəbər verir: "Adım Elgiz, Yevlax şəhər sakiniyəm, 17 yaşım var. Yazıb bildirmək istəyirəm ki, yaşım düşməsə belə döyüşlərdə könüllü iştirak edə bilərəm. Mən ordumuza inanıram, bilirəm ki, biz ermənilərdən qat-qat güclüyük".

Mingəcevir şəhərindən olan Hətəmov Xəyal Ələmşah oğlu Müdafiə naziri general-polkovnik Zakir Həsənova ünvanladığı müraciətdə yazır: "Mən **Hətəmov Xəyal Ələmşah oglu** Sizə müraciət edib bildirirəm ki, son günlərdə cəbhədə hərbçi qardaşlarımızın şəhid olmasından dərindən kədərləndim və düşmənə nifrətim daha da artdı. Sizdən döyüşlər başlayan kimi könüllü olaraq məni Azərbaycan Ordusunun sıralarına qəbul etməyinizi xahiş edirəm. Əgər döyüşlər başlamasa xahiş edirəm, hərbi xidmətimi ön cəbhədə keçməyimə şərait yaradasız".

Dünyanın müxtəlif ölkələrində yaşayan, təhsil alan həmvətənlərimiz, xüsusən də gənclərimiz Vətən uğrunda vuruşmağa, torpaqlarımızı düşmən tapdağı altından azad etməyə hər an hazır olduqlarını bildirirlər. Belə ki, Budapeştdən **Muradlı Murad Ramis oğlu** müharibə başlayacağı təqdirdə Azəbaycan Respublikasının ərazi bütövlüyü uğrunda könüllü olaraq vuruşmağı, canını qurban verməyə hər an hazır olduğunu yazır.

Güney Azərbaycandan gələn müraciətdə isə **Zəncirbulaqi Mehdi Qadir oğlu** vurğulayır:"Qarabağ bütün güneylilərin, o cümlədən mənim də ürək yarasıdır. Cənab nazir, sizdən xahiş edirik ki, bizi Vətən uğrunda vuruşmağa və canımızı bu yolda qurban vermək şərəfinə nail olmağımıza dəstək olasınız".

Rusiyada yaşayan soydaşımız, Göygöl rayonundan olan **İsmayılov Ruslan Sərhəd oğlu** da Müdafiə Nazirliyinə ünvanladığı müraciətdə Qarabağı işğaldan azad etmək üçün hər an Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmrini gözlədiklərini bildirir.

Bu cür məzmunlu müraciətlər Rusiyanın Moskva, Sankt-Peterburq, Penza, Çelyabinsk və digər şəhərlərində yaşayan həmvətənlərimizdən də gəlir. **Quliyev Elmar Usuləddin oğlu** yazır: "... müharibə başladığı təqdirdə Moskvada işlədiyimə baxmayaraq ordumuza dəstək olmağa, torpaqlarımızı işğaldan azad etmək üçün Vətənə qayıtmağa hazıram və hər an Ali Baş Komandanımızın əmrini gözləyirəm".

Sankt-Peterburqdan **Rzayev Elvin Malik oğlu** isə Müdafiə Nazirliyinə müraciət edərək dostları ilə birlikdə istənilən an döyüşlərə yollanmağa hazır olduqlarını bildirir.

Qürurverici haldır ki, həmvətənlərimizlə yanaşı hər zaman olduğu kimi türk qardaşlarımız da Azərbaycana dəstəklərini əsirgəmirlər. Bu dəstək onu sübut edir ki, Ermənistan Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar siyasətə son qoymasa, qarşısında bütün türk dünyasını görəcək. Azərbaycan tək deyil, onun arxasında dünyanın bütün mütərəqqi qüvvələri, o cümlədən çoxmilyonlu türk xalqları dayanıb. Belə ki, **Özgümüş Tahsin İzzət oğlu** müraciətində yazır: "Hörmətli cənab nazir! Türkiyə dövlət olaraq hər zaman Azərbaycanın böyük dayağıdır!"

Bakıda həkim kimi fəaliyyət göstərən türkiyəli **Bicik Ahmet Hüseyn oğlu** da Müdafiə naziri general-polkovnik Zakir Həsənova ünvanladığı müraciətdə lazım olduğu an bir türk qardaşımız olaraq Azərbaycan Ordusunda xidmət etməyin özü üçün böyük şərəf olduğunu vurğulayır.

Azərbaycanda ali təhsil almış Qazaxıstanda yaşayan **Çavqalov Rəşat Tofiq oğlu** da müraciətində şanlı Azərbaycan Ordusunun sıralarına və Qarabağ uğrunda döyüşlərə qatılmaq istədiyini bildirir.

**Hazırladı:
mayor
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Topçular hər an döyüşə hazırdır

***Səhər yeni açılır, üfiqdən boylanan alqırmızı günəş şüaları adama xoş ovqat bəxş edir. Bir azdan necə isti düşəcəyini, bürkü olacağını indidən müəyyən etmək çətin deyil. Buna görə də hərbi hissələrdə dərslərin və sıra məşqlərinin keçirilmə vaxtına dəyişiklik edilib. Belə ki, Müdafiə nazirinin müvafiq əmrinə əsasən şəxsi heyəti günvurmadan qorumaq məqsədilə məşğələlərin səhər və axşam saatlarında keçirilməsi nəzərdə tutulub.***





Biz ertədən "N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsindən daxil olanda əsgərlər bölmələrlə əvvəlcədən təsdiq olunmuş plana əsasən təlim-məşqlər keçirdilər. Hərbi hissədə ilk olaraq zabit Emil Eminovla görüşürəm. O bildirir ki, hazırda bütün şəxsi heyət məşğələ yerindədir. Onlar dərs cədvəlinə uyğun hazırlıqlarını artırırlar.

Onunla əsgərlərin təlim yerinə yollanırıq. Söhbətimizdən öyrənirəm ki, top komandiri gizir Xəqani Dadaşovun rəhbərlik etdiyi özüyeriyən artilleriya qurğusu ötən tədris ilinin yekunlarına əsasən hərbi hissənin ən yaxşı heyətlərindən olub. Hazırda həmin heyət özüyeriyən artilleriya qurğusu ilə məşğələ yerindədir. Təcrübəli artilleriyaçı zabit onu da əlavə etdi ki, həmin heyət bu yaxınlarda çöl-səhra təlimindən qayıdıb. Əsgərlər təlim zamanı yiyələndikləri bilik və bacarıqlarından məharətlə istifadə edərək qarşıya qoyulan döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirə biliblər.

Bizi təlim yerində divizion komandirinin şəxsi heyətlə iş üzrə müavini zabit Elşən Niyazov qarşıladı. O qeyd etdi ki, əsgərlər hərbi biliklərə və döyüş təcrübələrinə böyük həvəs göstərirlər. Belə ki, onlar komandirlərin keçdikləri dərsləri qısa zamanda mükəmməl mənimsəyərək təlimlərdə yüksək bacarıqlar nümayiş etdirirlər. Məşğələnin gedişinə nəzarət edən kapitan Tərlan Abdurahmanov bir qədər kənarda dayanıb heyətlərin çalışmaları necə yerinə yetirməsinə diqqət edirdi. Hansı əsgər tapşırığı dəqiq yerinə yetirməyibsə, yaxud keçdiyi mövzunu dərindən mənimsəməyibsə, o zaman komandirlər yenidən onlara mövzunu öyrədir. Əlbəttə, bu cür hazırlıq heyətlərin döyüş hazırlığının artırılmasına zəmin yaradır.

Kapitan T.Abdurahmanov on ilə yaxındır ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Zabit kimi xidmətə cəbhə bölgəsində başlayıb. Ön xətdə ayrı-ayrı bölmələrdə vicdanla xidmət edib. Başlıca məqsədi tabeliyində olan əsgərləri döyüş ruhunda tərbiyə etməkdir. Kursant illərində aldığı hərbi təhsil və sonradan qazandığı təcrübə ona bu sahədə kömək edir. Zabit deyir ki, tabeliyində olan heyətlərin hamısı yüksək döyüş hazırlığına malikdir. Ancaq onların arasında X.Dadaşovun komandir olduğu özüyeriyən artilleriya heyəti xüsusilə fərqlənir.

Gizir X.Dadaşov bacarığı və şəxsi nümunəsi ilə hər an sayılıb-seçilib. Bu gün də o komandiri olduğu top heyətinin döyüş vərdişlərini artırmaqla məşğuldur. Əslən Yardımlıdan olan gizir deyir ki, onun başlıca məqsədi komandir olduğu heyətin hər bir üzvünün döyüş hazırlığını artırmaqdır.



Heyət üzvlərinə gəlincə burada hər bir əsgərin üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirməsi başlıca amildir. Burada sürücü-mexanikin rolunu xüsusi qeyd etmək olar. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Zülfiqar Fərəcov üç ildir xidmətdədir. Ona təhkim edilən döyüş maşınını bacarıqla idarə edir.

Baş tuşlayıcı əsgər Hümbət Məmmədli bir ildən artıqdır ki, hərbi xidmətdədir. Əsgər üzərinə düşən vəzifəni mükəmməl bilir. Dəfələrlə çöl-səhra təlimlərində yüksək döyüş bacarığına malik olduğu təsdiqini tapıb.

Xüsusi döyüş geyimində qarşımda dayanan heyət nəfəri isə əsgər Sadiq Rüstəmovdur. Sadiq düşmənin işğalında olan Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndindəndir. Doldurucu heyət üzvü deyir ki, özüyeriyən artilleriya qurğusunun döyüş sirlərinə mükəmməl yiyələnib. Təcrübəli komandirlərin sayəsində hərbi biliklərə və döyüş təcrübəsinə yetərincə alışa bilib. Başlıca məqsədi erməni tapdağı altında qalan yurd yerlərinin tezliklə azad olunduğu günü görməkdir. Sadiq bunun üçün hər an döyüşə getməyə hazır olduğunu bildirdi.

Söz yox ki, hər bir əsgərin, damarında Azərbaycan qanı axan hər bir gəncin başlıca məqsədi torpaqlarımızı azad etmək və xalqımızın firavan həyatını təmin etməkdir. Ümid edirik ki, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin başçılığı altında torpaqlarımız tezliklə işğaldan azad ediləcək və bu yolda ordumuz üzərinə düşən tapşırıqları inamla yerinə yetirəcəkdir.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi vətənpərvərlik tərbiyəsində yenilik

## Silahlı Qüvvələrimizdə "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda müsabiqə yekunlaşıb



***Qəzetimizin əvvəlki saylarında qeyd etdiyimiz kimi, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə uyğun olaraq Silahlı Qüvvələrimizdə "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu adı uğrunda" müsabiqəyə start verilmişdi. Ordumuzun ayrı-ayrı qoşun növlərində və birliklərində ictimai-siyasi hazırlıq qrupları arasından ən yaxşılar öncə müəyyən edilərək, ilk üçlüyə düşmüş qruplar növbəti mərhələdə iştirak etmək imkanı qazanmışdı. Silahlı Qüvvələr üzrə ən yaxşı ictimai-siyasi hazırlıq qrupunun seçimini işıqlandırmaq məqsədilə bölgələrə biz də ezam edilmişdik. Nəhayət, bu günllərdə "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda keçirilən müsabiqəyə yekun vuruldu və qaliblər müəyyən edildi.***

Silahlı Qüvvələrimizdə "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu adı uğrunda" müsabiqənin keçirilməsində məqsəd bütün qoşun növlərinə məxsus hərbi hissələrdə və hərbi təhsil müəssisələrində hərbi vətənpərvərlik tərbiyəsinin səmərəliliyini artırmaq, neqativ halların qarşısını almaq, hərbi intizamı möhkəmləndirməkdir. Əlbəttə, bu keyfiyyətlərin şəxsi heyətə aşılanmasında ictimai-siyasi hazırlıq dərsləri mühüm rol oynayır.

Silahlı Qüvvələrdə şəxsi heyətin ictimai-siyasi hazırlığı bütövlükdə döyüş hazırlığının və hərbi tərbiyə işinin vacib tərkib hissəsidir. Bu məşğələlərdə dövlətimizin tarixi, Vətən uğrunda döyüşmək əzmi təbliğ olunur, müstəqil Azərbaycanın ordusunda xidmət etməyin şərəf işi olduğu başa salınır. Orduda döyüş qabiliyyətinin möhkəmləndirilməsində, hərbi qulluqçularda döyüş ruhunun və mənəvi-psixoloji hazırlığın yüksəldilməsində bu dərslərin önəmi böyükdür.

Məlum olduğu kimi, Silahlı Qüvvələrdə ictimai-siyasi hazırlıq dərsləri il ərzində zabit, gizir, əsgər və çavuş heyətlərilə aparılır. Məqsəd hərbi qulluqçularda Azərbaycan xalqına və Silahlı Qüvvələrin Ali Baş Komandanına sədaqət, Vətənə məhəbbət aşılamaq, hərbi bölmələrdə nizam-intizamın və qayda-qanunun bərqərar olmasına, hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinə nail olmaqdır. Eyni zamanda Hərbi Anda və nizamnamələrə sadiq olmaq, komandirlərin bu istiqamətdə əmr və tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirmək hər bir hərbi qulluqçunun birbaşa vəzifəsidir.

Təbii ki, məşğələlərin səmərəliliyi ilk növbədə qrup rəhbərlərinin hazırlıq səviyyəsindən, onların hərbi pedaqoji ustalığından, ictimai-siyasi və hərbi proseslərdən baş çıxarmasından, mövzunu şəxsi heyətə öyrədə bilmək bacarığından çox asılıdır. Əslində müsabiqənin keçirilməsində bir məqsəd həm də qrup rəhbərlərinin pedaqoji ustalıqlarını artırmaqdır.

Yuxarıda qeyd etdiyimiz kimi, öncə hərbi hissələrimizdə müsabiqəyə qatılmış ictimai-siyasi hazırlıq qruplarına baxış keçirilib. Müsabiqənin düzgün və ədalətli keçirilməsinə Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabitləri İslam Gəncəliyev və Arif Kərimov nəzarət edirdilər.





Qrup rəhbərləri məşğələnin əvvəlində şəxsi heyətə onların başa düşdüyü səviyyədə ölkədə və dünyada baş vermiş aktual siyasi məlumatları qısa çatdırırdılar. Sonra onlar mövzu üzrə sualları şəxsi heyətə izah edir, hər sualın sonunda döyüşçülərin mövzunu necə mənimsədiklərini aydınlaşdırırdılar. Məşğələnin sonunda isə qrup rəhbərləri mövzu ətrafında döyüşçülərin biliyini qiymətləndirirdilər.

Qrup rəhbərləri dərsin keçirilməsi üçün lazım olan maddi baza hazırlamış, müasir informasiya və kommunikasiya texnologiyasından yararlanmağa və digər vəsaitlərdən istifadə etməyə çalışmışdılar.

Müsabiqənin yekunlarına görə, yarışmada baş leytenant Rauf Fərmanlının rabitəçi əsgərlərdən ibarət qrupu qalib oldu. Bu qrupun iştirakilə keçirilən məşğələni mən də izləmək imkanı qazanmışdım. Doğrudan da, dərsin yüksək səviyyədə keçirilməsi üçün bütün şərait yaradılmışdı. Hiss olunurdu ki, zabit Elşad Əbilov tabelikdəki hərbi hissələrdə bölmələrin "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda müsabiqəyə yüksək səviyyədə hazırlaşmasını öz nəzarətində saxlamışdı. Rauf Fərmanlının əsgərlərdən ibarət qrupunun qalib gəlməsində zabit Elmar Zeynalabdinovun da zəhmətini qeyd etmək vacibdir.

Siyahı üzrə şəxsi heyəti yoxlayan baş leytenant Fərmanlı öncə ölkəmizdə və dünyada baş vermiş hadisələr barədə döyüşçülərə qısa məlumat verdi. Bundan sonra yeni məşğələnin mövzusunu şəxsi heyətə elan etdi.

Dərsi daha yaddaqalan etmək məqsədilə zabit əyani təşviqat vəsaitlərindən istifadə edirdi.

Müsabiqədə ikinci yerə Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusuna məxsus bölmə layiq görüldü. Baş leytenant Habil Ağayevin rəhbəri olduğu ictimai-siyasi hazırlıq qrupu da, hiss edilirdi ki, Silahlı Qüvvələrimiz səviyyəsində keçirilən yarışmaya ciddi hazırlaşmışdı. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin yetirməsi olan zabit Ağayevin özü mövzunu mükəmməl mənimsəmişdi və şəxsi heyətə asan başa düşülən tərzdə izah etməyə çalışırdı. Məşğələnin gedişini Əlahiddə Ümumqoşun Ordusunun zabiti Mirqiyas Rüstəmov da yaxından izləyirdi.

Müsabiqədə üçüncü yerə isə münsiflər heyəti tərəfindən ərazilərimizin müdafiəsində dayanmış "N" hərbi hissəsinin bölməsi layiq görüldü. İlk anlardan qrup rəhbəri baş leytenant Elməddin İmanov hazırlıqlı, işini bilən və vəzifəsinə yetərincə məsuliyyətlə yanaşan zabit təəssüratı oyatdı. Onun apardığı məşğələni döyüşçülər həvəslə dinlədilər. Dərsin sonunda keçirilən sual-cavabdan məlum oldu ki, əsgərlər mövzunu yetərincə qavrayıblar.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" adı uğrunda keçirilən müsabiqənin yekununa əsasən, müvafiq əmr imzaladı və qaliblər mükafatlandırıldı. Silahlı Qüvvələr səviyyəsində keçirilmiş geniş tədbir hərbi vətənpərvərlik tərbiyəsinin möhkəmləndirilməsi istiqamətində atılmış ən uğurlu addımlardan biri və orduda qabaqcıl təcrübə kimi yadda qaldı.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Xəbərlər:

## hadisələr, faktlar

### Fransanın hərbi şirkətləri məhsullarını Azərbaycanda nümayiş etdirəcək




Sentyabrın 11-dən 13-dək Bakıda keçiriləcək ADEX-2014 müdafiə sərgisində Fransanın müdafiə və təhlükəsizlik sektorunda fəaliyyət göstərən 15-ə yaxın şirkət təmsil olunacaq. APA-nın ADEX-2014 sərgisinin rəsmi saytına istinadən verdiyi məlumata görə, sərgidə iştirak edən şirkətlərdən yeddisi CİFAL France şirkətinin stendində, digərləri isə öz stendlərində məhsul və xidmətlərini nümayiş etdirəcək.

Qeyd edək ki, son bir neçə ildə Fransa Azərbaycanla hərbi və müdafiə sənayesi sektorunda əməkdaşlığa daha çox maraq göstərir. Fransanın müdafiə sektorunda fəaliyyət göstərən bir sıra firmaları Bakıya səfər edərək Azərbaycanın hərbi qurumları üçün təqdimatlar keçirib.

### İtaliya hərbi hava qüvvələrinə məxsus döyüş təyyarələri qəzaya uğrayıb



İtaliya hərbi hava qüvvələrinə məxsus "Tornado" tipli döyüş təyyarələri ölkənin şərqində keçirilən təlimlər zamanı qəzaya uğrayıb.

İtaliyanın rəsmi dairələrinin məlumatına görə, meşəlik əraziyə çırpılan iki təyyarə dərhal alovlanmağa başlayıb. Qəza nəticəsində sakinlərə hər hansı bir zərər dəyməyib. Üçü kişi və biri qadın olmaqla dörd pilotun axtarışları davam edir.

Artıq iki pilotun cəsədi tapılıb, digərlərinin də tapılması üçün bütün səylər səfərbər olunub.

### Erməni günahını boynuna aldı



Türkiyənin Rusiyadakı səfirliyinin binasına atəş açan erməni Artur Mirzoyan haqqında cinayət işi açılıb.

Məhkəmədə Mirzoyan təqsirli olduğunu boynuna alıb və 500 min rubl (10 850 manat) dəyərində cəriməni ödəməyi qəbul edib. Ona həmçinin cinayət işi başa çatana qədər ölkədən çıxmayacağı bildirilib.

Moskva məhkəməsi Artur Mirzoyanın xuliqanlıq maddəsi ilə bir aylıq həbs edilməsi haqqında qərar qəbul edib. Faktla bağlı cinayət işi davam etdirilir.

Qeyd edək ki, bir neçə gün əvvəl Artur Mirzoyan Türkiyənin Rusiyadakı səfirliyinin binasını atəşə tutmuşdu.

### Jurnalistin edamı və Barak Obamaya xəbərdarlıq



İraq Şam İslam Dövləti (İŞİD) ekstremist qruplaşması avqustun 19-da axşam "Amerikaya mesaj" adlı videoyazı yayıb. Videoda 2012-ci il noyabrın 22-də Suriyann şimal-qərbində itkin düşmüş amerikalı jurnalist Ceyms Foulinin edam kadrları yer alıb. Habelə bir il əvvəl Liviyada yoxa çıxmış "Taym" jurnalının əməkdaşı Stiven Sotloffun görüntüləri əks olunub. "Obama, bu Amerika vətəndaşının həyatı sənin növbəti qərarından asılıdır", - İŞİD yaraqlıları ABŞ Prezidentinə belə bir mesaj ünvanlayıblar.

AzərTAc xarici KİV-ə istinadla xəbər verir ki, hazırda ABŞ kəşfiyyat xidməti videonun həqiqi olub-olmadığını yoxlayır.

### Avropa ölkələri nüvə enerjisi stansiyalarının ömrünü uzatmağa çalışır



Avropa ölkələri istismar vaxtı ötmüş nüvə enerjisi stansiyalarını qorumaq niyyətindədir. AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, hazırda Avropa İttifaqı ölkələrinin elektrik enerjisinə olan ehtiyacının üçdəbiri məhz nüvə enerjisi stansiyaları hesabına ödənilir. Lakin Aİ-dəki 28 ölkədə olan ümumilikdə 131 nüvə reaktorunun orta yaş həddi 30 ilə çatır.

Enerji qiymətlərindəki enişin və azalan tələbin mənfi təsir göstərdiyi enerji şirkətləri, yeni stansiyalar tikmək əvəzinə mövcud obyektlərin ömrünü 2020-ci ilə kimi uzatmağın yollarını axtarır.

Qeyd edək ki, Aİ-nin ən böyük nüvə enerji istehsalçısı olan Fransadakı 58 nüvə reaktoru ölkənin elektrik enerjisinə ehtiyacının təxminən dörddə üçünü ödəyir.

### Merkel Baltik ölkələrinin müdafiə infrastrukturunu gücləndirməyi təklif edir



Almaniya kansleri Angela Merkel Latviyanın yüksək vəzifəli şəxsləri ilə görüşündə qeyd edib ki, Latviyaya NATO üzrə tərəfdaşlarının yardımı lazım gələrsə, onların tez reaksiya verməsi üçün hər cür şərait yaradılmalıdır.

Kansler xüsusilə vurğulayıb ki, NATO haqqında müqavilədə alyans ölkələrindən biri üçün təhlükə olarsa, müttəfiqlərin yardım göstərməsini nəzərdə tutan 5-ci maddə sadəcə sözlərdən ibarət deyil, real fəaliyyət göstərilməsini nəzərdə tutur.

O xatırladıb ki, tezliklə Almaniya Baltik ölkələrinin hava məkanında keşik çəkməyi öhdəsinə götürəcəkdir.

Latviya Prezidenti Andris Berzinş kansler Angela Merkel ilə görüşlərdən sonra deyib ki, Almaniya Latviya, Litva, Estoniya və Polşanın sərhədlərini qorumağa hazır olduğunu bildirib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

## Tarix

# Mətbuat vasitəsilə erməni terroru



(Əvvəli ötən nömrəmizdə)

Erməni komitəçilər II Məşrutiyyətin gətirdiyi sərbəstlik vəziyyətindən daha çox zəif yerlərə əl atdılar. Adana şəhərinə onlar çoxlu silah-sursat yığmış, inqilab etməyi planlaşdırmışdılar. 1909-cu ilin 14 aprelində bu üsyanı başlatdılar, onlara söz verilmişdi ki, böyük inqilab baş tutarsa, onlara dənizdən də dəstək gələcək. Plana görə, Mərsinə də qüvvə çıxaracaqdılar, sonra isə Çuxurova tutularaq ermənilərin ixtiyarına veriləcəkdi. Adana Qriqoriyan kilsəsinin yepiskopu Muşeğ üsyan öncəsi bütün vilayət kəndlərini gəzərək hamını silahlı olmağa səsləmişdi. Konstitusiyaya görə, hər kəs silah gəzdirə bilərdi, bu səbəbdən ermənilər də sərbəst şəkildə silahla gəzirdilər. Mərsində bir-iki ay ərzində ermənilərə 40.000 silah paylanmışdı. Bu faktı o zaman Mərsindəki ingilis konsul yardımçısı da açıqlamışdı. Adana şəhərində əhalinin yalnız yeddidə bir hissəsi ermənilər idi, komitəçilər kənardan buraya çoxlu erməni köçürməyə nail olmuşdular. Maraşdan, Xarputdan, Diyarbəkirdən xeyli erməni köçürülmüşdü. Şəhərdəki hər erməni evində 5-6 ailə yaşayırdı. Onlar üsyana hazırlaşırdılar. Üsyandan əvvəl bir teatr tamaşası göstərərək erməniləri türkləri qırmağa səslədilər. 14 apreldə bir erməninin iki türkü qətlə yetirməsi ilə üsyan başladı. Üsyanı yatırtmaq üçün göndərilən əsgərlərə erməni məhəllələrində atəş açıldı. Çox sayda jandarm və polis şəhid edildi. Ermənilər türkləri şəhərdən çıxmağa məcbur etmək istəyirdilər. Lakin buna nail olmadılar. Şəhər nəzarət altına alındı. Amma erməni və onların havadarları istəklərinə nail oldular. Yenidən "erməni məsələsi" gündəmə gəldi. Bu dəfə daha çox canfəşanlıq edən Fransa idi. Fransa gəmiləri ingilislərlə birgə cənub sularında, Mərsin ətrafında idi, amma onlar müdaxilə edə bilmədilər. Türk hərbi qüvvələri ermənilərə qarşı əməliyyat gerçəkləşdirdi və ermənilərin planları alt-üst oldu.

Adana olaylarının Avropa mətbuatında türklər əleyhinə başağrısı olacağını bilən ittihadçılar Qərbə xoş gəlsin deyə inqilabçı, üsyançı erməniləri deyil, özlərini müdafiə edən türkləri cəzalandırdılar. Bu, erməni siyasi və terror təşkilatlarının yenidən fəallaşmasına səbəb oldu. Daşnak komitəsi Adana olaylarından sonra Türkiyədə açıq fəaliyyətə keçdi. Daşnaklar 1910-cu ildə Kopenhagendə keçirdikləri toplantıda belə bir qərar aldılar ki, Türkiyədə bütün ermənilər hərbi təlim keçməlidir, daşnakların əmrlərinə əməl etməyən ermənilər öldürüləcəklər, günah türklərin üzərinə atılacaq. Daşnaklar Türkiyənin hər yerində təşkilatlanma işini başa çatdırmış, silah anbarlarına sahib olmuşdular. İngilis, fransız və rus səfirlikləri "erməni məsələsi" ilə məşğul olmaq üçün xüsusi tapşırıqlar almışdılar.

"Hnçak" partiyası da mövcud durumdan yararlanaraq Türkiyədə təşkilatını qüvvətləndirmək üçün tədbirlər gördü. "Hnçak" 17 sentyabr 1913-cü ildə Kostansada (indi Rumıniyadadır) keçirdiyi konqresində Osmanlı hökumətinə qarşı bir "savaş" açdı. Əslində bu, onun göstəricisi idi ki, ermənilər taktiki planlarında dəyişiklik ediblər. Onlar Osmanlı dövlətinə öz sözlərini deyil, rusların sözlərini deyirdilər, qarşılığında isə ruslardan umacaqları vardı. "Hncak" yazırdı ki, "Osmanlı bizə istədiyimizi verməyəcək, amma bunu ruslardan ala bilməliyik". Ermənilərin almaq istədikləri nə idi? Onlar dövlət yaratmaq məsələsinin Türkiyədə çətin olacağını bilirdilər, I Dünya müharibəsindən öncə Rusiyaya yönəlik siyasətlərində də heç bir dəyişiklik etməmişdilər, yenə də Rusiya onların himayədarı idi. Amma onun daha etibarlı olması üçün müəyyən gedişlər etməyə ehtiyac var idi. Bu gedişlərin ən yaxşısı yenə də Osmanlı dövlətinə qarşı tutulan sərt siyasət, bəzi hallarda isə amansız mövqe olmalı idi. Erməni təşkilatları bu yolla Rusiyanın xoşuna gələ bilərdi və belə də oldu. 1914-cü ildə müharibə başlayan kimi onlar Rusiyanın tərəfinə keçdilər və hərbi quldur dəstələri yaradaraq vətəndaşı olduqları dövlətə qarşı vuruşmağa başladılar. Erməni siyasi təşkilatları yaxşı bilirdilər ki, hər hansı siyasi vəziyyət onların planlarının Cənubi Qafqaza keçməsinə səbəb olacaqdı. Bu isə erməniləri təmin edirdi.

Ermənilər I Dünya müharibəsi ərəfəsində almanların dəstəyi ilə 1913-cü ildə yenidən Rusiyaya erməni layihəsini ortaya çıxarmağa nail olmuşdular. Bu layihə Şərqi Anadoluda islahatlarla bağlı müqavilənin təzələnməsindən ibarət olmalı idi və "İttihad və Tərəqqi" hökuməti 6 fevral 1914-cü ildə həmin islahat müqaviləsini imzaladı. Amma həmin ilin yazında müharibənin başlaması "erməni məsələsi"ni yenidən arxa plana keçirdi. XIX əsrin sonlarında Böyük Dövlətlər Osmanlı hakimiyyətinə hərtərəfli təzyiqlər etməyə başlamışdılar. Elə həmin vaxtlarda erməni üsyanları da çoxalmağa başlamışdı. "Hnçak" və "Daşnaksutyun" partiyalarının terrorçu dəstələri polislərə və dövlət məmurlarına qarşı hücumlar təşkil edirdilər.

Yenə də Sasun vilayətində iğtişaşlar artmışdı. Bu bölgədə Miqran Damadyan adlı terrorçu yenidən peyda olmuşdu, onun barəsində "Hnçak" qəzeti geniş bəhs edirdi. Onun terrorçu qrup yaratmasını və bu qrupa erməni gənclərini cəlb etməsini qəzet erməni xalqına həvəslə xəbər verirdi. Həmin terrorçu qrupun əli ilə 1893-cü ildə bir aşirət başçısı öldürülmüşdü. Həmin aşirətin adamları öz qisaslarını almaq üçün erməni kəndi olan Taluriyə hücuma keçmiş və burada hər iki tərəf xeyli itki vermişdi. Osmanlı dövləti gərginliyi aradan qaldırmaq üçün bu kəndə qoşun göndərmişdi. Damadyan həbs edilib İstanbula aparılmışdı. Bu hadisədən sonra mətbuatda hay-küy qaldıran Qərb dövlətləri türkləri yerli etnik millətlərlə davranışlarını nizama salmağa çağırırdı, əks təqdirdə ciddi tədbirlər görüləcəyi ilə hədələyirdilər. Onlar gizlicə bu terrorçu dəstələrə də öz yardımlarını göstərirdilər. Damadyan həbs ediləndən sonra onun yerini tutan Hambarsum Boyacıyana ("Murad" ləqəbli) ingilislərin köməyi barədə faktlar mətbuatda açıqlanmışdı. Ermənilər Berlin konfransının onlara verdiyi hüquqlara istinad edərək Qərb dövlətlərinin və Rusiyanın işə qarışmasını istəyirdilər. "Droşak" yazırdı ki, "türklərin bu kənddə ermənilərə qarşı etdiyi hərəkət onlara baha başa gələcək". Rus və ingilislərdən dəstək alan ermənilər qonşu türk kəndlərinə hücum etməkdən belə çəkinmirdilər, onlar, hətta ordu ilə toqquşmalara qədər azğınlaşmışdılar. Türk asayiş keşikçilərinin məsələlərə biganə qalmaması isə xaricdə antitürk əhval-ruhiyyəsinin artmasına səbəb olurdu. Bu kampaniya zamanı qəzetlərdə belə bir məlumat gedirdi ki, 1894-cü il hadisələri zamanı 5 - 6 min erməni öldürülmüşdür. Bu qırğınlar guya yenə də davam etdirilir. Bunu "Hnçak" qəzeti də yazmışdı, "Hnçak" partiyasının İstanbul şöbəsi sentyabrda bu "qırğına" etiraz əlaməti olaraq nümayiş keçirmək istəyirdi. Hökumətin ona icazə verməməsinə baxmayaraq ermənilər 30 sentyabrda nümayiş keçirməyə nail oldular. Nümayişçilər asayiş keşikçilərinə atəş açdılar, bir polis jandarmı, xeyli əsgər həlak oldu və yaralandı. Nümayiş dağıdılsa da, ermənilər öz istəklərinə nail oldular. Onların məqsədi dünyanın diqqətini bu məsələlərə cəlb etmək idi.

(Ardı var)

**Qafar ÇAXMAQLI,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

# Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***20 avqust 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Yusifcanlı, Baş Qərvənd, Sarıcalı, Qaraqaşlı, Novruzlu, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında və Cəbrayıl rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

***21 avqust 2014-cü il.***

Erməni silahlı bölmələri dünən Goranboy rayonunun Tapqaraqoyunlu kəndi yaxınlığında yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

***22 avqust 2014-cü il.***

Erməni silahlı bölmələri bu gecə Ağdam rayonunun Şıxlar və Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

# Xarici hərbi xronika

## "Kabina" layihəsinin birinci mərhələsi başa çatıb

"Kabina" layihəsinin kəşfi haqqında əmr 2013-cü ildə verilib. Layihənin həyata keçirildiyi qısa bir müddət ərzində "KAMAZ" avtomobil zavodunda KAMAZ-5490 avtomobilinin kabinəsinin yığılması üçün yeni konveyer quraşdırılıb. Burada tikinti-montaj işlərinin aparılması üçün 28 min kvadrat metr sahə ayrılıb. Bu işlərin görülməsində yeni texnologiyadan istifadə edilib. "KAMAZ" zavodunun fəhlələri bu məqsədlə xarici istehsal sahələrində böyük təcrübə keçiblər. Həm də zavodda yeni kabinənin rənglənməsi, yığılması, qaynaqlanması, istehsalın planlaşdırılması və məhsulun keyfiyyətinə nəzarət edilməsi üçün Daimerdən mütəxəssislər və ekspertlər dəvət olunub.

## Kosmik müdafiə üzrə yeni layihə

Rusiyalı mütəxəssislər S-500 zenit-raket sisteminə böyük ümidlər bəsləyirlər. RF-nın Müdafiə Nazirliyi ilə dövlət müqaviləsi çərçivəsində Rusiyanın hava-kosmik müdafiə sistemlərinin layihələşdirilməsi üzrə işlər planlaşdırılıb. Bundan əvvəl proqramın əsasında uzaq məsafəli raketlərin sınağı həyata keçirilib. Bu raketlər perspektiv S-500 "Prometey" zenit-raket kompleksinin tərkibinə daxil ediləcək. Mövcud proqram çərçivəsində qarşıya qoyulan bütün tapşırıqlar yerinə yetirilib.

Müdafiə Nazirliyi istehsalçılardan zenit-raket kompleksinin sərbəst olaraq orta məsafəli ballistik raketləri ələ keçirməsini, kibersəsli qanadlı raketləri, təyyarələri və pilotsuz uçan aparatları , kosmik vasitələri və s. məhv edə bilməsini tələb ediblər. İstehsalçılar isə bu sistemin eyni vaxtda 10 ədəd ballistik hədəfləri məhv edəcəyinə söz veriblər.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

## Publisistik düşüncələr

# Səngər, əsgər



**Səngər** mənim də ömrümün bir parçası olub. Ürəyimin istisini qəribsədiyim, qışın sazağında hərarətindən isindiyim səngərləri indi də qürurla xatırlayıram. Həm də kövrəkliklə. Bir vaxtlar soyuq səngərlərin istisini mən də duyurdum. Səngərlərdə əsgərlərlə könül söhbəti eləyərdik. Aradan illər keçəndən sonra könlümdən o səngərlərə yenə üz sürtmək, oğullarla kəlmələşmək keçir. Səngər Vətənin könül söhbəti ediləsi ən müqəddəs parçasıdı; ata yurdu ayrılıqda əzizdi adama, səngər - ümumilikdə. Ata yurdu da səngərlərin alqışçısıdı, duaçısıdı...

Düşüncələrim səngərlərə ad olub. İllərin o üzündən kövrəkliklə üzümə baxan xatirələri qılığa tutmaq olmur. Mən Rəşiddən o Rəşidi soraqlayan xatirələr az qala dilə gələcək, soruşacaq, soruşmaq nədi, mühakimə edəcək, məhşər ayağına çəkəcək, dirigözlü öldürəcək: "İnsafınız yerə tökülsün! Hardasınız?"...

İlk ezamiyyətimdə, 1992-ci ilin fevralında bir şeir yazmışdım:

Səngərlərdə oğul gördüm
Özümə yazığım gəldi.

Bu şeiri həmişə ömrümün səngərli günlərinin kövrək bir xatirəsi bilmişəm...

1994-cü ilin Novruz bayramında Tərtərdəydik. Düşmənlə üzbəüz dayanan əsgərlərə Novruz sovqatı vermək, səngərlərə "papaq atmaq" istədim. Döyüşçülərdən Pənahla Fəğan istəyimi gerçəkləşdirdi...

Papaq atmışdım. Pay almışdım: bir ovuc torpaq. Və göz yaşı içində səngərdəki döyüşçüləri bağrıma basmışdım. Hələ bu qədər torpaq sevgisi hiss etməmişdim. Uşaqlığımda da, yeniyetməliyimdə də dəfələrlə atdığım "papağ"a pay qoyulub. Tətrərdə isə bu qədər əziz, bu qədər dəyərli payı tütyə kimi bağrıma basmışdım....

Duruşu, qətiyyəti, qüruru yerləri-göyləri heyrətləndirən səngərlərin mənə, mənim isə qələmimə yazığım gəlir. Səngərlərin məndən istədiklərini qələmimdən umuram. Bir az ərklə, bir az çəkinə-çəkinə. Yadıma düşür ki, "qələmin göyərməsi, boy verməsi - bar verməsi üçün Xətainin (səngərdəki oğulların - **R.F.**) qılıncını suvarmaq (silahına biət eləmək - **R.F.**) gərək" (Məmməd Araz).

Səngərdəki oğulların ürəyi elə səngərdi, Vətənin cismani-ruhu olan səngər. Səngərlər qışın sazağında o ürəklərin oduyla isinir, bürküdə o ürəklərin təsəllisindən sərinləyir...

Ağdərə ətrafında döyüşlər səngimişdi. Döyüşçülərlə söhbətləşirdik. Yusifin "kefi ala buluddan nəm çəkirdi"; mövqe qələbəsi hamının ürəyini kükrətmişdi. Baxışlarımın beş-altı addım aralıda səngərin "torpaq əllərini" ovuşduran, ovxalayan əsgərə zilləndiyini görüncə Yusifin bənzərsiz təbəssümü göy üzünü gözümüzə sarı çəkdi:

- Səngər əsgərin ürəyidi - dedi...

Zaman-zaman könlü qübarlanan dağlara üz tutub, dərdini dağlara deyib, dərdinə dağlardan məlhəm umub. "Qüdrətdən səngərli-qalalı dağlar"ı Dədə Ələsgər də könül sultanı bilirdi, bundan qürurlanırdı. Xatırladırdı ki, məqamında dağlar da səngərdi - qüdrətdən yaranmış səngər. Səngərin adına, səngərə bircə qoşma, gəraylı, təcnis yazılmayıb. Qüdrətdən yaranmadığına görəmi?

Torpaq kəsimini səngərə çevirənlər həmin yeri əzəmətləndirir, heysiyyət ünvanına çevirir; səngər Vətənin can köynəyidi...

Sinəsini neçə ömürə sipər eləyən, neçə ömürə can verən, neçə yaralı ömürə balınc olan səngər əsgər ayaqlarının səsini ruhunun laylası bilir, şübhəsiz; yaralı döyüşçünü sinəsinə çəkir, başını dizinin üstünə qoyub doğmalığını, məhrəmliyini yaralıya məlhəm eləyir. Hayançı gələnə kimi yaralıya bir içim su olur, bir udum hava...

Görünməyən, hiss edilən, duyulan tellərlə ata yurdumuzun, doğma ocağımızın da üstünə ətək sərən səngərin doğmalığını duymayanlara yazığım gəlir...

Qarabağda səngərlərimiz sərhədlərimizin bu üzünə düşüb. Səngərlər ərazi bütövlüyümüzün sərhədlərinə köçürüləcək. Ali Baş Komandanın əmri ilə!..

**Əsgər** torpağı vətənləşdirir; torpağı Vətənə çevirən əsgərdi. Səngər sərhəddin, bu anlamda torpağın şah damarıdı. Səngərin şah damarı əsgərin ürəyinə çataqlıdı...

1992-ci ilin mart ayında Füzulidəydik, Qacar kəndində. Ezamiyyətdə. Qırmızı Bazar istiqamətində təpəliyə qalxırdıq. Topçu kişinin - Novruz Əliyevi hamı belə çağırırdı - söhbətlərinin işığında. O Novruz kişi ki, beş-altı gün əvvəl Qırmızı Bazarda, "Rantikin pavilyonu"nu top mərmisiylə darmadağın eləmişdi. Niyəsə, ayaq saxlamışdım. Topçu kişi təəccüblə, bir qədər də narahatlıqla üzümə baxmışdı, yorulduğumu güman eləmişdi.

- Səngərlər hardadı, Novruz dayı? - tələsik soruşmuşdum. Kişinin üz-gözünü anlaşılmaz bir duyğu bürümüşdü. Əlini ürəyinin üstünə qoymuşdu:

- Burdadı - demişdi. - Hər Qacarlının ürəyi bir səngərdi.

Onda göy üzünə qışqırmaq, göy üzündə çaxnaşan buludlara barmaq qıcamaq istəmişdim: Füzulidə hər ürək bir səngərdi!

Səngər dirəyi də səngərdi.
Nədi can?
Can nədi? - bir udum hava,
Verərəm Vətənin gərəyi olsa.
Yağı can itirər, can ala bilməz,
Hər ürək bir səngər dirəyi olsa!..

Səngərin ürəyi əsgərdi. Yusif belə demişdi...

Əsgərin ürəyi səngərdi. Topçu kişi belə demişdi.

İki deyim...
İki təqdim...
İki duyum...

Hər ikisi səngər tanıyana, əsgər tanıyana, müharibənin nə olduğunu bilənə mənəviyyatın nəhayətsizliyindən düşən işıqdı...

Yüksək rütbəli bir zabit "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdu. Redaksiyanın tapşırığı ilə Arif Pənahlı onun haqqında məqalə yazmalıydı. Zabit jurnalistin təklifinə etiraz eləmişdi, olduqca incəliklə. "Gedək" demişdi, "Əsgərlərin yanına gedək. Əsgərlərdən yaz". Bu kəlmələr mənəviyyatdan, əsgərə verilən qədərsiz dəyərdən, ehtiramdan, zabit mundirinə, zabit adına sayğıdan süzülən kəlmələriydi. Gümanlarım mənə deyir ki, Arif Pənahlının əsgər həyatından yazdığı ən gözəl yazı həmin yazı olub; səmimi, ürəyin hökmü ilə deyilən təklif yazılacaq (yazılan!) məqalənin (bütün tələbləriylə!) uğuruna təminat verib. Ürək olub bu yazıda - yüksək rütbəli zabit ürəyi, əsgər ürəyi, jurnalist ürəyi...

Goranboy əməliyyatında, Gülüstan ətrafında iki döyüşçümüz - Fəğanla Vüqar (familiyalarını unutmuşam) himayə atışı aparırdı. Vüqar yaralananda Fəğan barmağını tətikdən çəkir. Döyüşçü səngərdaşına ilk yardım eləyib avtomatları çiyninə keçirir, Vüqarı güc-bəla belinə alır. Dikdiri qalxmalıydılar. Həm də vaxt itirmədən...

Fəğan son addımları sürünə-sürünə irəliləyir...

Həkimlər deyir ki, 15-20 dəqiqə geciksəydilər, Vüqarı ölümdən xilas eləmək mümkün olmayacaqdı...

Fəğanın ölümdən xilas elədiyi döyüşçü Ağdərə əməliyyatında böyük şücaət göstərdi. Yusif rəhmətlik deyirdi ki, belə döyüşçülər erməníni yatağınacan qovacaq.

Fəğan əsgər idi! Azərbaycan Ordusunun əsgəri!..

...Torpaq sərhəd dirəklərinin işğaldan əvvəlki yerində dikələcəyi günün həsrətindədi. Bunu əsgərlərimiz edəcək. Ali Baş Komandanın əmri ilə! ..

**Rəşid FAXRALI**
**"Azərbaycan Ordusu"**

# İdman

## Taekvandoçumuzun Yay Olimpiya Oyunlarında ilk qızıl medalı



Azərbaycan idmançısı Səid Quliyev yeniyetmələrin ikinci Yay Olimpiya Oyunlarının taekvando yarışlarının qalibidir. S.Quliyev (73 kq) finalda almaniyalı Həmzə Adnan Kərimə 10:4 hesabı ilə qalib gələrək Azərbaycana yeniyetmələrin ikinci Yay Olimpiya Oyunlarında ilk qızıl medalı qazandırıb. Beləliklə, Azərbaycan komandasının aktivində 1 qızıl və 4 gümüş medal vardır.

## Azərbaycan avarçəkəni Olimpiya Oyunlarının gümüş medalını qazanıb



Azərbaycan idmançısı Boris Yotov Nancinqdə yeniyetmələrin 2-ci Yay Olimpiya Oyunlarının akademik avarçəkmə yarışlarının gümüş medalını qazanıb. B.Yotov avqustun 20-də birnəfərlik qayıqda (JM 1X) 1000 metr məsafəyə 3 dəqiqə 21,82 saniyə nəticə ilə ikinci olub. Birinci yeri almaniyalı Tim Ole Naske (3 dəqiqə 21,23 saniyə), üçüncü yeri isə kanadalı Dande Qrut (3 dəqiqə 22,21 saniyə) tutublar. Beləliklə, Azərbaycan yeniyetmələri "Nancinq-2014"də daha bir medal qazanıblar.

## Azərbaycan paralimpiyaçısı Avropa çempionu olub



Böyük Britaniyanın Svansi şəhərində paralimpiyaçılar arasında atletika üzrə Avropa çempionatı keçirilir. AzərTAc xəbər verir ki, avqustun 20-də Azərbaycan Milli Paralimpiya Komitəsinin atleti Oloxan Musayev diskatma yarışlarında 41,63 metr nəticə göstərərək qızıl medal qazanıb. Yarışda milli komandamızın 5 üzvü iştirak edir. Çempionata qatılmış digər idmançılarımızdan Allahverdi Allahverdiyev gümüş, Solmaz Səfərova isə bürünc medala sahib olublar.

## Azərbaycan atleti Avropa çempionatında gümüş medal qazanıb




İsveçrənin Sürix şəhərində atletika üzrə Avropa çempionatı davam edir. AzərTAc xəbər verir ki, çempionatda Azərbaycanı 5 min metr məsafəyə qaçış yarışlarında təmsil edən Hayle İbrahimov gümüş medal qazanıb. Məsafəni 14 dəqiqə 8 saniyəyə qət edən atletimiz yalnız Böyük Britaniya təmsilçisi Mo Faraksdan geri qalıb.

## "Qarabağ"- "Twente" oyununda qalib müəyyənləşmədi



UEFA Avropa Liqası yarışlarının pley-off mərhələsi çərçivəsində Ağdamın "Qarabağ" komandası ilk oyununu keçirib. AzərTAc xəbər verir ki, Azərbaycan çempionu Tofiq Bəhramov adına Respublika stadionunda Hollandiyanın "Twente" komandasını qəbul edib. Almaniyalı baş hakim Manuel Qrafenin idarə etdiyi görüşün birinci hissəsində hesab açılmayıb. Azərbaycan futbolçuları dəfələrlə rəqib qapısına təhlükəli zərbələr endirsələr də, top çərçivədən yan keçib və oyun heç-heçə ilə yekunlaşıb. Komandalar arasında cavab görüşü bir həftə sonra Hollandiyada keçiriləcəkdir.

## Atıcılıq üzrə Qəbələ "Qran-pri"-sində idmançımız bürünc medal qazanıb



Qəbələdə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilən Olimpiya atıcılıq növləri üzrə beynəlxalq "Qran-pri" yarışları davam edir. Gənc oğlanlar arasında dairəvi stend üzrə keçirilən yarışda Qazaxıstan təmsilçisi Aleksandr Muxmediyev birinci, Qətər idmançısı Məhəmməd Al-Kuvari ikinci, Azərbaycan atıcısı Niyaz Ağazadə üçüncü yeri tutublar. Xatırladaq ki, ümumi mükafat fondu 81 min ABŞ dolları olan yarışlarda 150-yə yaxın idmançı dairəvi və səngər stend Olimpiya atıcılıq növləri üzrə mübarizə aparır.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Gizir Əlməmmədov Elsevər Rəşid oğluna 2004-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid FAXRALI

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 269
Nüsxə 4570